*NEKROLOQ*

# TEYFUR QİYAS OĞLU MƏLİKOV



Məlikov Teyfur Qiyas oğlu 1932-ci ildə Siyəzən rayonunun Saadan kəndində anadan olub. Körpə ikən anasını və İkinci Dünya müharibəsində atasını itirsə də, yaxın qohumlarının himayəsi ilə rayonda orta məktəbi başa vurub, 1953-cü ildə Azərbaycan Sənaye İnstitutuna (daha sonra Azərbaycan Neft və Kimya İnstitutu, hazırda isə Neft və Sənaye Universiteti) daxil olur. 1958-ci ildə həmin institutu ali təhsilli geofizik kimi başa vuraraq təyinatla "Siyəzənneft" Neft-Qazçıxarma Birliyində operator vəzifəsində əmək fəaliyyətinə başlamış, daha sonra həmin Birlikdə mühəndis-operator, mühəndis, geofizik kimi çalışmışdır. 1960-cı ildə Azərbaycan Neft və Kimya İnstitutunun aspiranturasının əyani şöbəsinə qəbul olunmuş, 1963-cü ildə aspiranturanı bitirdikdən sonra institutun geoloji və geofiziki tədqiqatlar labaratoriyasında işləmişdir.1965-ci ildə fizika-riyaziyyat üzrə elmlər namizədi elmi dərəcəsi almış və 1997-ci ilə kimi həmin institutun ali riyaziyyat kafedrasında assistent, baş müəllim, dosent kimi fəaliyyətini davam etdirmişdir.

O, 1972 -1974 və 1976 - 1977-ci illərdə Əlcəzair Xalq Demokratik Respublikasında müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur.

Tələbələrə qarşı tələbkarlığı ilə seçilən Teyfur müəllimin bir çox bacarıqlı, istedadlı gənclərin yetişdirilməsində rolu böyük olmuşdur. Hazırda SOCAR-ın müxtəlif müəssisələrində, o cümlədən Geofizika və Geologiya idarəsində Teyfur müəllimin tələbələri yüksək peşəkarlıq tələb edən müxtəlif aparıcı vəzifələrdə çalışmaqdadırlar.

Teyfur müəllim 1998-ci ildən Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyində, 2006 - 2009-cu illər ərzində Geofizika və Geologiya idarəsində çalışmışdır.

Geofizika üzrə 4 monoqrafiya, 50-dən artıq məqalənin müəllifidir. 2002-ci ildən Azərbaycan Respublikası L.Zadə adına Benəlxalq Müasir Elmlər Akademiyasının müxbir üzvü olmuşdur. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Fəxri Fərmanı və "Fəxri Neftçi" döş nişanı ilə təltif edilmişdir.

İkinci Dünya müharibəsi illərində (1941 - 1945) arxa cəbhədəki köməyinə görə "Rəşadətli Əmək və Əməkdə Fərglənmə" medalı ilə təltif edilmişdir.

Teyfur müəllim 30 avqust 2020-ci il tarixində vəfat etmişdir.

***Allah rəhmət eləsin!***

***SOCAR Geofizika və Geologiya İdarəsi***
***Azərbaycan Milli Geofizika Komitəsi İB***
***"Azərbaycanda Geofizika Yenilikləri" jurnalının redaksiya heyəti***